# Əbədiyyətin doğuluşu

Vaqif Bəhmənli



"Əlvida, Bakı!"
Rəs. Vaqif Nəzirov

**Proloq**

Bu da sonu
möhtəşəm
və sanki əbədi
harmoniyanın;
hönkürüb ağladıqca
gözlərindən
səs tökülür
Filarmonaynın.
Səs nə gəzir -
sükutdu solist!
Səs adına qopan
bir zərrə yox, şəksiz...
Oxumaq məqamını gözləyən
xanəndədi Filarmoniya -
içini artlamaq belə
ağlına gəlməz;
İçi çölündən səssiz,
Çölü içindən səssiz...
"Hər gecəm oldu kədər,
qüssə, fəlakət sənsiz..."

**1.**

Susdu daha bir səs,
Susdu dahi bir səs,
Susdu əjdaha bir səs...

**2.**

Və bütün Azərbaycan
üstünə gələn
qara xəbərdən
təntiyərək,
həm də səsini
içinə salıb
yıxıla-yıxıla,
dura-dura
axırda ora.
Və bütün Azərbaycan
tələsən ləpələri
bir-birini
ötüb keçmək istəyən,
təntimiş dalğaları
bir-birinə mafar verməyən
iti axan çaylar sayaq
dibini,
qırağını
yandırıb yaxa-yaxa,
ox-ox,
ah-ah,
yuxa-yuxa,
sel su ilə əlbəyaxa
axırda ora...

**3.**

Səssiz səslər
dəstə-dəstə -
və hamısı adam cildində,
Adamlar uca-uca,
adamlar zil-zil,
bəstə-bəstə,
pəstdən-pəstdən
adamlar
və hamısı səs cildində.

**4.**

Mən də
içi uçuna-uçuna
Boyun əyərək taleyin
son ucuna,
qoşulub səssiz axına
axıb gedirəm -
gözünün yaşını
canına çəkərək
mismar batmayacaq dərəcədə
islanıb dolmuş
kötük kimi,
və yaxud
yüpyüngül,
içi havalanmış
qoca başlı
köpük kimi...

**5.**

Öz xoşuna
deyildi kimsə,
ayrı səsə
baş qoşan
deyildi kimsə:
"Ömrümün mənasısan,
anamın anasısan,
Azərbaycan,
Azərbaycan...
Azərbaycan" - deyə
haylayaraq
ucadan,
uşaqdan,
gəncdən,
qocadan
tutmuş hər kəsi,
yəni 8 milyon səsi,
8 milyon nəfəsi
çağırırdı Müslüm!

**6.**

...Filarmoniyanın
qüssədən
sıxılan
sarımtıl
salonunda
yanırdı,
qaralırdı
qəmli könüllər,
saç yolub, üz cırırdı
əbədi ayrılığın
qədəminə səpilən,
milyon
yaralar kimi açılan
pəmbə güllər,
pəmbə güllər...
Qürbətdən üstünə
tabut gələn ananın
öz başı bir tərəfə,
yerdə qalan balalarını da
unutduğu bu müsibətdə
kim fərqinə varar ki,
ilk dəfə hansı sənədə,
hansı səhnədə
qönçə-qöçə
çatlayıb açıldı,
gül vurdu
ətirli,
təravətli,
qüdrətli
və solmaz səs?!
Kim idi fərqinə varan ki,
hara imiş o laləzar məkan
və
ilk dəfə
nə zaman,
harda,
kim imiş ona
gül verən
bəxtəvər kəs?
Sənələrcə
səsə gələn
pəmbə güllər...
Hüzndə də gözəl
bakılı qadınlar kimi
bu dəfə
tökülüşüb
yasa gələn
pəmbə güllər...
göz yaşı qədərincə
muncuq-muncuq güllər,
qopuq-qopuq düymə güllər,
çatlaq-çatlaq
nəlbəki güllər,
pəmbə güllər...

**7.**

Milyonların alqışını
su kimi canına çəkib
boy atan kəsin tükənməyi,
şam-şam yanıb-yanıb
sönməyi fəlakətdi,
Yumşaq-yumşaq,



zərif-zərif,
qalın-qalın,
hirs-hərəkətli
çağırır,
çağırır Müslüm -
dayanmadan;
Azərbaycan...
Azərbaycan...
Azərbaycan...
və
on minlərlə səs insan,
səssiz insan
çağlaya-çağlaya ağlayan
bir sükutla axırdı
qara-qırmızıyla parıldayan
tabutun
içinə gömülüb susan
Müslümə sarı
və
Azərbaycan,
Azərbaycan
isminə sarı...

**8.**

Çiçəklər,
pəmbə güllər dənizində
gövdəsi
tünd qara-qırmızıyla boyanmış
bir gəmi üzür
həm də səhnədə
və
həm də
səhnəni
qövsi bir dəniz kıyısı kimi
dövrəyə almış
səssiz adamlar,
səs adamlar...
uca boylu zil adamlar
bəstə boylu pəs adamlar...
Gəmi sahilə deyil,
sahil gəmiyə
yan almış bu dəfə,
səsə can verən səhnə
səsdən can almış
bu dəfə!
"Hər nəfəs çəkdim hədər
getdi o saət sənsiz..."

**9.**

... Sükut dəryasının
dibinə çökürdü
içi sirlərlə,
sevgilərlə,
almazlar,
brilliyantlar,
cəvahirlərlə dolu
TİTANİK!

**10.**

Hələ üstəlik
Səssiz insan seli
Çaylar kimi gurlayıb
Müslüm dəryasına tökülür
və sanki
heç yerli-dibli olmayıb,
axmayıb,
yoxmuş kimi
itib-batırlar Müslümdə.
Bu nəhs gündə,
bu pis gündə
fələk qısılıb
Filarmoniyanın
gözəgörünməz küncünə,
giley-güzar eliyir
bəxtin çürük ipindən,
Zəm-zəm suyu bənd alır
quraq səhra dibində.
Bəlkə də
sükut
səsin
bərkimiş halıdır;
Ən tükənməz səsin də
sükut durur sonunda.
Səsə susayan Müslümün

son sükutunda
susur sevgiyə susayan da,
susur südə susayan da,
susur qana susayan da...

**11.**
...və
qafil qopan
qocaman alqışlar
yas yerinə yubanan,
taybatay
açıq darvazadan gircək
saçını yolan
ağbirçək Tamara mamam kimi
hönkürür...
Nəyi dəyişə bilər ki,
hönkürən alqış?
Nəyi dəyişə bilər ki
Tamara mamam?
Tamam!
Allah öz işini bir dəfə,
həm də
səhvini
düzəltmədən görür...

**12.**
Bu da
möhtəşəm
və sanki əbədi
harmoniyanın sonu...

İlk dəfə səhnəyə çıxıb oxurkən
bir nəfəs vermişdi Müslüm;
geniş,
dərindən, isti....
İndi
ölümlü gündə
geri çəkirdi
o nəfəsi Müslüm,
geri alırdı
bircə-bircə
payladığı səsləri;
səsləri
nəfəsləri...

**13.**
Və
İnsan selinin səsi,
yaxa yırtıb üz cıran
pəmbə güllərin qüssəsi
alqışların hönkürməsi
çətin ki, oyatsın onu...
Amma bəzən
heç nədən
yaranır möcüz
amma bu sükut elə sükut ki,
oxuyanda susdurmaq,
susanda oxutmaq
mümkünsüz!

**14.**
Allahın əlindən düşüb
iki para bölünən
qızıl valdır artıq o -
ürək bir tərəfdə,
qan bir tərəfdə...
bədən bir tərəfdə,
can bir tərəfdə.

**15.**
Və
o dalğalar içrə
içi uçuna-uçuna
axıb getmirəm daha mən,
seldən qalma
xırda bir gölməçə sayaq
susuram xırda bir çalada...
Açıb gözlərimi nəlbəki boyda
bu boyda uçqundan sonra,
bu boyda vayda
hələ də
görə,
duya,
eşidə bildiyimə görə



xoflanıram.

Tabutmu o, İlahi?
Səhnə işıqları altında
bərq vuran qara-qırmızı
rəngli sandıqca
qədimi patefonmu?
Qızıl küpümü yoxsa?
Səsdən sükuta addadan
körpümü yoxsa?

**16.**
Fil dişi kimi
saf və sınmaz
qara-qırmızı rəngli
bir royal içində
endi Azərbaycana
Müslüm.
Güllər royal üstünə
pəmbə-pəmbə töküldü,
dağ boyda divin canı
bir topa nəfəsə dönüb
qara-qırmızı rənglənmiş
royalın içinə çəkildi,
səsini içinə çəkdi
Müslüm,
səsin içinə çəkildi...

**17.**
Nə zülüm, qardaş, nə zülüm?
Nə ölüm, qardaş, nə ölüm?

...illər qovar illəri
əlçatmaz xəyal olar.
Müslüm adına məzar
dönüb bir royal olar.
Royal royal içində
iki royal içində
royal dilləri kimi ağarar
ağ üzlü Müslümün
ağappaq sümükləri...
Və
barmağımız
toxununca torpağına
tərpənər
royal dilləri,
səksənər
və
səslənər
Müslümün sümükləri.
Kövrələr canımızın
hər yeri
ağappaq royal dillərinin
şirmayi
tərpənişinə uyğun:
"Anamın anasısan,
ömrümün mənasısan
Azərbaycan...
Azərbaycan..."
Dünyaya yaraşıq verən
oğullarını basdırmaqdan
gözündə yaş qalmayan
Azərbaycan,
anamızın anası
Azərbaycan
dərdli dizini
ovxalaya-ovxalaya
ağlar səssizcə.
Bu dəfə də zalım fələk
Anamızın anasını
ağladar beləcə...

**...Epiloq**
Müslümün sükutunu
Tanrı pozar bu dəfə!
Bu dəfə Tanrı oxuyar,
Hanı susar bu dəfə;
"Hər gecəm oldu kədər,
qüssə, fəlakət sənsiz..."

*2008-2009*